**İçindəki qadınlarla tanışlığa hazırsanmı?**

**Sevgili, ana, şüurlu günahsız, döyüşçü...Qadın təbiətinin dörd üzü... Həqiqi qadını yaratmaq üçün tarazlığımı qorumaq şərtilə inkişaf etdirməli olduğumuz dörd gücümüz... Dörd üzümüz...**

**Bəlkə də qadın rolunu nə zaman qəbul etdiyimizi heç xatırlamırıq da.**

**Həqiqətən də, nə zaman qadın olduq? Qadınlığımızın sərhədləri və xüsusiyyətləri nə zaman dəqiqləşdi?**

**Dırnaq boyalarımızın rəngiyləmi? Geyimlərimizləmi? Yoxsa ki, dikdaban ayaqqabılarımız, rənglənmiş saçlarımızla qadın olduğumuzu qabartdıq? Davranışlarımızdakı naz-qəmzə, yoxsa ki, uşaqların gülümsəmələrinə səbəb olmağımız...**

**Biz bu qarışıqlığın, öhdəmizə qoyulan məsuliyyətin içində özümüzü unutmuşuq.**

**İndi xatırlamaq zamanıdır! Daxilindəki, oyanmağı gözləyən qadınlarla tanış olmağa hazırsanmı?**




# Qadın kimi qadın

Bəzən qələmi ələ alıb unutmaq üçün yazarsan. O zaman ki, yazmaq, əslində, elə unutmaqdır. O zaman yazarsan ki, başındakı bütün qarışıqları uzaqlaşdırmağı ümid edərsən. Bəzənsə xatırlamaq üçün yazarsan.

Bu gün yazmaq mənim üçün hər şeydən əvvəl bir ehtiyacdır. Özümü xatırlamaq üçün yazmağa ehtiyacım var. Yazıram ki, gələcək günlərdə bunları xatırlayım. Bəlkə də özümü oxumaq, öz səsimi duymaq üçün yazıram. *"o"*, içimdəki, heç zaman rahatlıq tapmayan, incə və gücsüz səsimi. Həyatımın fırtınaları, tufanları içində də susmayan, daima mənimlə danışan səsimi.

Sən də mənimlə bərabər oxu bu yazdıqlarımı. Sənə inanıram. Elə bir an gələcək ki, bu sözlərin arxasında özünü xatırlayacaqsan.

Qadın olmaq və qadınlıq çox qəribə bir şeydir. İllərlə inkar edə bilərsən, görməzlikdən gələrsən. Amma elə bir an gələr ki, baxıb görərsən sən də onlar kimi oturursan, durursan, danışırsan. *"o"*, boğazını sıxmağa başlayar və beynində getdikcə dərinləşən boşluqlar yaranar. Artıq oyun oynamaqdan əl çəkib susmağa üstünlük verərsən, həyatını *"o"* qadının öhdəsinə buraxmaq istəyərsən. İstəyərsən ki, *"o"* da bir az oynasın, qərar versin, yaratsın və danışsın.

Mən istismara məruz qalmamışam, indiyə qədər heç bir kişi məni incitməyib, atam məktəbdən saxlamayıb. Xeyr! Bunların heç biri yazmağımın əsas səbəbi deyil. Həmçinin bu dərdlərə şahid olmaq o qədər də çətin deyil.

Mən adi br qadınam. Ətrafda gördüyün bütün qadınlardan biriyəm. Avtobusda, sinifdə, küçədə, yolda yanından keçdiyin və ya uzaq kəndlərdə təndirdə çörək bişirən qadınlar kimiyəm. Nə fərqi var ki... Hamımız qadın olaraq bərabərik; varlı və ya kasıb, gözəl ya da çirkin, ana ya da qız, oxumuş ya da oxumamış. Hamımız, hamımız qadın kimi eyniyik.

Bəlkə də qadın rolunu nə zaman qəbul etdiyimizi heç xatırlamırıq da.

Həqqətən də, nə zaman qadın olduq? Qadınlığımızın sərhədləri və xüsusiyyətləri nə zaman dəqiqləşdi?

Dırnaq boyalarımızın rəngiyləmi? Geyimlətimizləmi? Yoxsa ki, dikdaban ayaqqabılarımız, rənglənmiş saçlarımızla qadın olduğumuzu qabartdıq? Davranışlarımızdakı naz-qəmzə, yoxsa ki, uşaqların gülümsəmələrinə səbəb olmağımız... Qadınlığımızın göstəricisi bunlardımı?

Yoxsa ki, yaratdığımız möcüzələrdir?

Məsələn, bir evə girərik və oranı aydınladarıq, əllərimizlə bişirər, dua edər, dilək diləyərik.

Və həyatdakı hər kəs bizim əzizləməyimizə möhtacdır.

Qadınlığımızın sərhədləri hardadı?

Qucaqladığımız və bəslədiyimiz uşaqlardamı?

Və ya qucağımızda rahatlıq tapan kişilərdəmi?

Məncə, qadınlıq bunların hamısıdır və eyni zamanda bunlardan daha güclü bir anlayışdır.

Biz bu qarışıqlığın, rənglərin, qucaqların, danışıqların, istəklərin, öhdəmizə qoyulan məsuliyyətin içində özümüzü unutmuşuq. Və qadınlıq varlığımın gözardı etdiyimiz bir parçasıdır.

İlk dəfə hakimin qarşısında dayandığım zaman həyatım boyunca əldə etdiyim bütün varımdan imtina edirdim ki, yanımdakı kişi məni boşasın. Çox qəribə bir hiss idi, o otağı çox yaxşı xatırlayıram. Filmlərdə gördüyümüz məhkəmələrdən çox fərqli idi. Üst-üstə qalanmış qovluqlar və kağızlarla dolu kiçik bir otaq idi. Həmişə gözümdə daha böyük bir otaq canlandırmışdım. Sanki ədalət də mənimlə zarafat edirdi. Özümə hədsiz dərəcədə qəzəbli idim. Daxilimdə dayanmadan özümə qışqırırdım. İçimdəki səs o qədər yüksək idi ki, kənardakı hay-küyü eşitmirdim. O kiçik otaqda hakimin səsi ilə özümə gəldm. Əhvalı yaxşı idi. Zarafat edərək işə başladı. "Hə, de görək bu "arvadı" nə üçün boşamaq istəyirsən?", deyə yoldaşımdan soruşdu. O da laqeydcəsinə cavab verdi: "Çünkü daha məni sevmir!" Hakim qəhqəhə ilə güldü: "Daha da yaxşı. Qadından çox nə var. Bu olmasa başqası olar". Ədaləti təmsil edən bir adamın bu təhqiredici zarafatına əhəmiyyət vermədim, səssizliyimi qorudum. Otaq çox havasız idi və tezliklə hər şeyin qurtarmasının, buradan tez çıxmağın arzusundaydım. Otaqdakı hər şey boz və tünd qəhvəyi rəngdə idi. Hakim saqqallı idi, boz kostyum geyinmişdi. Yanındakı katib qadın qara çarşaba bürünmüş, biləklərinə qədər çarşabın altında gizlənmişdi. Hakimin arxasında böyük bir pəncərə vardı. Hakim və bütün qovluqlar aydınlığa arxa çevirib oturmuşdular. Səssizdim, amma içimdə meydan oxuyarcasına qışqıran bir mübarizə vardı. Səssizcə bu fırtınanı izləyirdim. O gün dərk etmişdm, heç kim mənim haqqımı əlimdən almamışdı, haqsızlığa uğramamışdım. Ən böyük haqsızlığı özümə eləmişdim. Özüm-özümü aldatmışdım. Bu həqiqəti 26 yaşında yenicə öyrənmək çox əzab verirdi və bu hiss çox güclü idi. Ən böyük zülmü özün-özünə edərkən kimsədən şikayət etməyə haqqın yoxdu. Heç kimi günahlandıra bilməz və əzabını heç kimin boynuna qoyub sakitləşə bilməzsən.



Mən İranda bir türk ailəsində dünyaya gəldim. İranda Türk qadını kimi tanındım. Xəyalpərəst, iranlı və türk bir qadın. İranda qadın olmaq dünyanın hər hansı bir yerində qadın olmaqdan çox daha fərqlidir. İranlı bir qadın azadlığın və bərabərliyin mənasını yaxşı bilir. Tarixi yaddaşında və mədəniyyətində bir çox eniş-yoxuşlar yaşamışdır. Vaxtilə başındakı hicabı zorla açdırıb, sonra günlərin birində yenidən zorla hicab keçirmişlər. İran qadını bu qədər fərqli tarix yaşarkən bir sıra paradoksallıqla qarşılaşmışdır. Ən qəribəsi də budur ki, bütün bu paradoksallığa baxmayaraq, bu dünyadan nə istədiyini, nəyi axtardığını yaxşı bilir. Qanad açır və inkişaf etməyə başlayır, inadkarlığı nəticəsində yavaş-yavaş bərabər olmayan qanunlarla qarşı-qarşıya qalır. Kiçik yaşlardan bu çərçivələrlə üzləşərək mübarizə aparmağı öyrənir. İranlı qadın ən kiçik mədəni haqqa sahib olmaq üçün illərcə mübarizə aparmağı yaxşı bilir. Təbii ki, elə qadınlar da var ki, mübarizə aparmaz və həyatlarıyla barışmağı seçərlər.

Mən İranda böyüdüyüm üçün qadınların problemini gördüyümdə, bərabər olmayan haqlar, mirasın qeyri-bərabər bölünməsi halları ilə rastlaşanda, bunların hamısının qadın və kişinin fərqli yaradılması bəhanəsinə arxalanan qanunların kölgəsində qaldığını görür və həmişə düşünürdüm: əgər qadını hüquqi bərabərliyin olduğu bir cəmiyyətə apara bilərsək, qadın artıq azad, müvəffəqiyyətli və insani bacarıqlarını inkişaf etdirmiş bir fərd olacaq. Türkiyəyə gəldikdə isə acı bir həqiqətlə qarşılaşdım. Hüquqi bərabərlik də qadının dərdinə dərman ola bilməzmiş. Bu dəfə də qadınlar namus cinayətləri, kiçik yaşda məcburi evliliklər kimi problemlərlə mübarizə aparmalı olurdular. Qadınlar bir çox haqqa və azadlığa sahib olmalarına baxmayaraq, könüllü olaraq öz haqlarından əl çəkirdilər. Görməzdən gəlməyə üstünlük verirdilər. Ən təəccüblüsü isə qadının könüllü şəkildə öz aləmində özünü kişi ilə bərabər hesab etməməsiydi. Qısacası qadın müstəqillikdən, azadlıqdan qaçırdı.

Bax, qələmi əlimə alıb bu kitabı yazmağımın əsas səbəbi də budur. Heyif ki, ölkələrin, mədəniyyətlərin heç fərqi yoxdur. Bu dünyanın harasında yaşasaq da, güclü, uğur qazanmış, eyni zamanda xoşbəxt bir qadına nadir hallarda təsadüf edirik və belə qadınların sayı getdikcə azalır. Haqsızlıqlarla dolu və əzab-əziyyətli bir dünyada yaşayırıq, lakin artıq qadının problemlərini sadəcə olaraq cəmiyyətin və dövlətin problemi kimi görməməliyik. Bu kitab məhz bu qayğılar səbəbindən yazıldı. Harada yaşayırıq yaşayaq fərqi yoxdur, biz qadınlar uğur qazanmaqdan öz razılığımızla imtina edir, daha azını istəməyə razılaşır və bacarıqlarımızın son sərhədlərinədək gedib çıxmırıq. Özümüzü ciddi qəbul etmirik və özümüz üçün mübarizə aparmırıq. Tarix

boyunca həmişə ikinci cins kimi görülmüşük. Bəlkə də bunu şüuraltımıza o qədər yaxşı yerləşdiriblər ki, artıq həyatımızın bir çox sahəsində yaşadığımız dünyadan və cəmiyyətdən çox, məhz özümüz özümüzü geridə saxlayıb arxa plana keçirmək istəyirik.

Bu kitabın konkret mesaj vermək məqsədi yoxdur. Kitab qarmaqarışıq və rituala çevrilmiş, daima bir yerlərə tələskən həyatımızda bir an dayanıb başımızı qaldırmağımızı və özümüzü bir qadın kimi incələməyimizi istəyir. Özümüzü tanıyaraq ehtiyaclarımızı kəşf etməyimizi, bircə dəfə belə olsa özümüz üçün bir addım atmağımızı təmin edəcəyinə ümid edir. Bəlkə böyüyərik və xəyallarımızı xatırlarıq.

Bu kitab qadının daxili dünyası haqqındadır. Qadınlığımız haqqındadır. Yaşımızın elə bir əhəmiyyəti yoxdur. Çünki özümüzü qoruya bilməsək, gec-tez mənliyimizi başqa birisinə və ya hər hansı bir şeyə həsr edəcəyik. Mən qadını qaranlıq bir hücrədə tək qalan biri kimi görürəm. Həm onu həbs edən divarlar və barmaqlıqlar, həm də azadlığa çıxmasına mane olan gözətçi elə özüdür.

Bu hər bir məhkum üçün eynidir: əgər həqiqətən də azadlığı hiss etmək və təmiz havanın ətrini duymaq istəyirsənsə hər şeydən çox özünə və səni hərəkətə gətirə biləcək ehtirasa ehtiyacın var. Çünki öz beynində yaratdığın hücrədən çıxmaq ən qaranlıq zindanlardan qurtulmaqdan daha çətindir.

Mədəniyyət və keçmiş sadəcə bizim beynimizdə formalaşmış və formalaşmaqda davam edən bir anlayışdır. Yeni bir dünyada yaşamaq üçün beynimizin çərçivələrini dəyişməliyik. İlk öncə özümüzü dayandırmalı və bu sualın cavabını verməliyik: Müstəqil olmaq, insanlarla normal münasibətlər qurmaq yoxsa ki, həyatımızın sonuna qədər asılı bir fərd olaraq qalmaq, fürsət düşdükcə ətrafımızdakılardan şikayətlənmək istəyirik?

İnanıram ki, qadınlığın enerjisi yaşadığımız dünyanı daha da gözəlləşdirmək baxımından böyük bir gücə malikdir. Bu qadına xas enerjinin azad olması özümüzü dərk etməyimizdən başlayır. Biz cəmiyyətin döyünən ürəyiyik və yaşadığımız dünya bizim iradəmiz olmadan qızlarımızım və qadınlarımızın yaşaya biləcəyi gözəl və bərabər həyat qurmaqda acizdir. Yaşadığımız dünya sadəcə olaraq bizim əks etdirdiyimiz həyatdır. Gəlin bir dəfə də olsa rolumuzu oynamayaq. Çünki daha bizə verilən rolları oynamaqdan yorulmuşuq. Eləyə bildiyimiz halda əlimizdən gəlmirmiş kimi davranmaqdan bezmişik. Gəlin öz həqiqətimizlə danışıb o qəhrəmanlarla göz-gözə baxaq. "O" qəhrəmanlar ki, mübarizə aparırlar, sevirlər, analıq edirlər və dünyaya mənəviyyat paylayırlar.

Qadın kimliyimiz.

Cəmiyyətlər dəyişir. Doğulduğumuz cəmiyyət inanılmaz şəkildə hərəkətlidir və yenidən formalaşmaqdadır. Bu formalaşma və sürət başqa şeylərə baxanda insan övladına daha çox təsir edir, şəxsiyyətini dəyişir. Şəxsiyyətimiz üstümüzdə gəzdirdiyimiz sənəddən daha çox bizim sosioloji və psixoloji xüsusiyyətlərimizi əhatə edən bir anlayışdır. Şəxsiyyətimiz öz daxilimizdə özümüzü əks etdirən bir rəsmdir. Sadə bir şəkildə "mən kiməm?" və ya bir cəmiyyətə verdiyimiz "biz kimik?" sualına özümüzün verdiyimiz cavabdır.

Biz özümüzü birdən-birə bir fərd olaraq idrak etmirik. Bir fərd olaraq özümüzü dərk etməyimiz və şəxsiyyətimizin formalaşması valideynlərimizin bizi ilk dəfə qucaqlarına götürmələri ilə başlayır və ölümlə görüşənə qədər təkrarlanaraq davam edir. İnandığımız adət-ənənələr, mədəniyyət biz dünyaya gəlməzdən çox əvvəl yaranmışdır. Beləliklə də, bu qəliblər bizim gündəlik həyatımızı, vərdişlərimiz və eləcə də şəxsiyyətimizi formalaşdırır.

"Nənələrimiz evlərində və mətbəxlərində heç bir imkana malik olmasa da 8-9 uşaq böyüdərdilər. Bu zaman şikayət etmələri də görülməmişdi, ancaq siz, zəmanə qadınları ən çox iki uşağınız olduğu halda və müasir imkanlara sahib olarkən həmişə yorğunsuz və həyatdan şikayətlənirsiz." Bəlkə də onlar dərk etmir ki, bizim yorğunluğumuz daha fərqlidir... Günümüzün qadını zehni olaraq yorulur. Çünkü müasir qadınlar darmadağın olmuş bir şəxsiyyətə malikdir. Bəzi hissələri çox uzaq düşüb və bizim üçün artıq heç bir əhəmiyyəti qalmasa da həyatımızdadılar. Və bir də yeni parçaları var ki, hələ də mənimsəyə bilməmişik, amma qanun və hüquq tərəfindən qətiyyətlə bizim haqqımız kimi qəbul edilir. Məsəl üçün, istismara məruz qalan bir çox qadın psixoloji dəstəyə və köməyə ehtiyac duyduğu halda şikayət etməyə qorxur. Qanunən bu haqlara malikik, lakin beyinlərdə hələ yox.

Gəlin belə düşünək ki, qırıq bir güzgünün qarşındayıq. O güzgünün hər bir parçası bizim xarakterimizin bir cəhətidir. Hər parçaya baxdıqda öz xarakterinizdən bir iz tapacaqsız, lakin hər parça sadəcə bir xüsusiyyətinizi əks etdirə bilər.

Bu xüsusiyyətlərimiz qadın şəxsiyyətimizi yaradan cəhətlərdir və bu dörd xarakterdə onları görə bilərik: "sevgili" "ana", "şüurlu və günahsız" və "döyüşçü".

"Hər birimiz sevgiliyik; biz gözəllik və gözəlliyin cilvəsini qəlbimizlə dərk edərik. Gözəllk görülmək, alqışlanmaq və heyran olunmağı istəyər. Bu cəhətdən işvəli, naz-qəmzəliyik".

"Hamımız anayıq; hamımız analıq edirik, qoruyuruq və tərbiyə etmək üçün hədsiz məsuliyyət daşıyırıq. Qadının daxilindəki səbir və iradə ağlamaqdan başqa heç bir imkana malik olmayan körpəyə belə həyat dərsi verir".

"Hamımız şüurlu və günahsızıq; mənəviyyatlı cantılarıq. Heç bir qadın peyğəmbərimiz olmasa da, bütün böyük dinlərin ilk inananları və sadiq insanları güclü mənəviyyatı olan qadınlardır".

"Hər birimiz döyüşçüyük. Həyatın sıxdığı, əzdiyi yerlərdə həyata bağlanmaq cəhdimiz təmtəraqlı bir cəngə çevrilir".

*Hazırladı:*

**Nərmin Cahangirova**